Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının
Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və ümumi təhsil
üzrə dövlət agentliyi

RFM
RESPUBLİKA FƏNN MÜSABİQƏLƏRİ

# İnformatika

## 6-cı sinif

| AD: | SOYAD: |
|---|---|
| MƏKTƏB: | SİNİF: |

- İmtahan müddəti 120 dəqiqədir.
- 1-5-ci suallar 3 bal, 6-20-ci suallar 4 bal, 21-25-ci suallar 5 bal ilə dəyərləndirilir.
- Hər səhv cavab öz dəyərinin $\frac{1}{4}$-ni aparır.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan öncə mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Məktəblilərarası fənn müsabiqələrinin nəticələrini portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.
- Nəticələr 06.05.2025-ci il tarixindən etibarən elan ediləcəkdir.

1. Aşağıdakı sxem alqoritmin hansı növünə aiddir?




A) xətti B) budaqlanan
C) dövrü D) tam

2. Mətnlərlə işləmək üçün aşağıdakı proqramlardan hansı əlverişlidir?

A) Paint B) WordPad
C) ALPLogo D) PowerPoint

3. Verilmiş bayraq əlifbasından istifadə etməklə kodlaşdırılmış sözü tapın.







A) BANAN B) SALAM
C) SAMAN D) MARAL

Fənn müsabiqələri

4. Mətn redaktorunda kursordan soldakı simvolu silmək üçün hansı klavişdən istifadə olunur?

A) Enter B) Delete
C) Shift D) Backspace

5. Hər bir hərfin yaddaşda 1 bayt yer tutduğunu nəzərə alsaq, **nümunə** sözünün informasiya həcmi nə qədər olar?

A) 42 bit B) 8 bayt
C) 6 bit D) 48 bit

6. Videofilmin həcmi 4 Gbayt-dır. Bir disk 700 Mbayt informasiya tutur. Bu filmi köçürmək üçün neçə disk lazımdır?

A) 4 B) 5
C) 6 D) 7

7. Hansı fikirlər doğru deyil?

*1. Fayllar qovluqda saxlanılır*
*2. Qovluqlar faylda saxlanılır*
*3. Qovluğun içində qovluq saxlanıla bilməz*

A) Yalnız 1 B) Yalnız 1 və 3
C) Yalnız 2 D) Yalnız 2 və 3

8. Pişik şəkildəki kimi ağaca hər gün 5 metr qalxır və 3 metr aşağı enir.




Pişiyin yerdən 30 metrlik ağacın başına çatması üçün ən azı neçə gün lazımdır?

A) 12 B) 13
C) 14 D) 15

9. Aşağıdakı komandaların icrasından sonra icraçının çəkdiyi parçanın uzunluğu neçə addım olacaq?

**Kod bölümü**

```
sil
ilkinvəziyyət
qələmiendir
irəli 50
irəli 10
geri 40
geri 60
irəli 105
```

A) 105 B) 145
C) 205 D) 265

10. Aşağıdakı proqramın icrasından sonra bağa qrafika bölümündə hansı fiquru çəkəcək?

**Kod bölümü**

```
sil
ilkinvəziyyət
qələmiendir
qələmineni 5
irəli 60
geri 30
sağa 90
irəli 60
bağanıgizlə
```

A)  B) 

C)  D) 

11. Rəng kodlarını nəzərə almaqla aşağıdakı proqramın icrasından sonra bağa qrafika bölümündə hansı fiquru çəkəcək?

| Rənglərin ikili say sistemindəki kodları | | |
|---|---|---|
| | | |
| 000 | 010 | 100 |

**Kod bölümü**

```
sil
ilkinvəziyyət
qələmiendir
qələminrəngi 0
irəli 50
sağa 90
qələmineni 5
qələminrəngi 2
irəli 50
bağanıgizlə
```

A)  B) 

C)  D) 

Fənn müsabiqələri

12. Alqoritmi təqdim etmək üçün qrafik yazılış formasının ən çox istifadə olunan növü hansıdır?

A) cədvəl
B) proqramlaşdırma dili
C) blok-sxem
D) söz

13. Üç dəmir puldan biri saxtadır və onun çəkisi yüngüldür. Çəki daşları olmayan iki gözlü tərəzidə minimum neçə dəfə çəkməklə saxta pulu müəyyənləşdirmək olar?



A) 1 B) 2
C) 3 D) 4

14. Aşağıdakı sxem alqoritmin hansı növünə aiddir?




A) xətti B) budaqlanan
C) dövrü D) tam

15. Aşağıdakı alqoritmin icrasından sonra ***n***-in qiyməti çıxışda neçə olacaq?




A) 2 B) 3
C) 10 D) 11

16. Aşağıdakı alqoritmin icrasından sonra **b** dəyişəninin son qiyməti neçə olacaq?

```
a = 4
b = 3
c = 5
c = c + b - a
b = b + a
a = a + c - b
```

A) 1 B) 2
C) 5 D) 7



17. Raul mağazada vitrində 11 növ meyvə görür və onu belə bir sual düşündürür – görəsən bu 11 növ meyvəni ikilik say sistemində kodlaşdırmaq üçün minimum neçə bit lazımdır?



A) 11 B) 4
C) $2^{11}$ D) 5

18. 4x4 ölçülü sudoku cədvəlindəki xanalarda yalnız 1,2,3,4 rəqəmlərindən biri yazıla bilər. Heç bir sətir və sütunda rəqəm təkrarlana bilməz və həmçinin 4 ədəd 2x2 ölçülü kvadratlarda da heç bir rəqəm təkrarlana bilməz.
Aşağıdakı sudoku cədvəlini tamamladıqda sual işarələrinin (mavi rənglə göstərilib) yerində yazılacaq rəqəmlərin cəmi neçə olacaq?

| | | | |
|---|---|---|---|
| | 3 | 4 | ? |
| 4 | | ? | 2 |
| 1 | ? | | 3 |
| ? | 2 | 1 | |

A) 8 B) 10
C) 11 D) 13

19. Aşağıdakı proqramın icrasından sonra bağa qrafika bölümündə hansı fiquru çəkəcək?

**Kod bölümü**

```
sil
ilkinvəziyyət
qələmiendir
təkrarla 2[irəli 100 sola
45 irəli 100 sola 90]
irəli 142
bağanıgizlə
```

A) 

B) 

C) 

D) 

20. Əlifbanın onluq say sistemindəki sıra nömrələrini nəzərə alaraq **SARA** sözünün ikilik say sistemindəki kodlaşdırılmasında toplam neçə dənə bit 1-ə bərabər olacaq?

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| A, 1 | B, 2 | C, 3 | D, 4 | E, 5 | F, 6 | G 7 |
| H, 8 | I, 9 | J, 10 | K, 11 | L, 12 | M, 13 | N 14 |
| O, 15 | P, 16 | Q, 17 | R, 18 | S, 19 | T, 20 | U 21 |
| V, 22 | W, 23 | X, 24 | Y, 25 | Z 26 | | |

A) 4 B) 7
C) 9 D) 12

21. Əvvəlki 20-ci sualdakı əlifbanın onluq sıra nömrələrini istifadə etmək şərtilə hər bir hərf ikilik say sistemində 8 bitlə göstərilirsə, onda **SARA** sözünün ikilik say sistemində kodlaşdırılmasında toplam neçə dənə bit sıfır olacaq?

A) 14 B) 17
C) 25 D) 26

22. CUBORO taxta labirintində bir top bir neçə tuneldən keçərək hədəfinə çatmalıdır.



Aşağıdakı qaydaları nəzərə alaraq topun hədəfinə çatması üçün keçməli olduğu tunellər hansı (və ya hansıları) olmalıdır?

1. *Top ya birinci tunelin girişindən, ya da ikinci tunelin girişindən hərəkətə başlamalıdır.*
2. *Top yalnız iki tuneldən keçərək hədəfinə çata bilər.*
3. *Top hər hansı tuneldən yalnız bir dəfə keçə bilər.*
4. *Əgər top ikinci tunelə girərsə, üçüncü tuneldən keçməlidir.*
5. *Əgər top birinci tuneldən keçərsə, sonra mütləq dördüncü tuneldən keçməlidir.*
6. *Top hədəfə çatmaq üçün dördüncü tuneldən keçməlidir.*

A) birinci və ikinci
B) birinci, üçüncü və dördüncü
C) birinci və dördüncü
D) yalnız dördüncü

23. Murad xəzinənin kvadratlar şəbəkəsində harada basdırıldığını öyrənmək üçün oyun oynayır. Murad **S** ilə işarələnmiş başlanğıc xanadan başlayır və o, yalnız üfüqi və ya şaquli olaraq qonşu xanalara addım ata bilər. Hər addımdan sonra Murad xəzinəyə yaxınlaşdığını və ya ondan uzaqlaşdığını bildirən bir siqnal alır.

**C** – *Muradın xəzinəyə yaxınlaşması siqnalı*
**F** – *Muradın xəzinədən uzaqlaşması siqnalı*

Nəzərə alın ki, xəzinəyə olan məsafə ora çatmaq üçün minimum addım sayına bərabərdir.

Fənn müsabiqələri

Murad aşağıdakı şəbəkədə **S** işarəli xanadan hərəkətə başlayır, burada onun yolu oxlarla göstərilir və əldə edilən siqnallar da bildirilir.




Xəzinə nömrələnmiş xanalardan hansının altında basdırılıb?

A) 1 nömrəli
B) 3 nömrəli
C) 5 nömrəli
D) xəzinə ya 2, ya da 4 nömrəli xananın altında yerləşə bilər

24. Aşağıdakı ifadələri nəzərə alaraq sual işarəsi yerində yazılmalı olan ədədi tapın.




A) 21 B) 42
C) 18 D) 36

Fənn müsabiqələri

25. Aşağıdakı alqoritmin icrasından sonra bağa qrafik bölümdə hansı ədədi yazacaq?

**Kod bölümü**

```
sil
ilkinvəziyyət
yazınınölçüsü 20
dəyişən a,b,c,d
a=4
b=2
c=(a*a+b*b)/(a-b)
d=(2*(a*a)-b)/(a-2)
əgər (a>b)
     [yaz c]
əkshalda
     [yaz d]
bağanıgizlə
```

A) 10 B) 12
C) 15 D) 30